Nostalji

# "İlk dəfə beşinci sinifdə vurulmuşam"

## O, dünəni bu gün kimi xatırlayır...

*Ədəbiyyatşünas, publisist, dilçi və tərcüməçi, filologiya elmləri doktoru Qəzənfər Paşayev Tovuz mahalında dünyaya göz açıb. Bütün varlığında Tanrı və insan sevgisi var. Danışdıqca elə bilirdim şeir dinləyirəm...*

*Kənddən şəhərə gəldi, şəhərə sığmayıb Dəclə-Fərat sahillərinə qayıtdı, aşıq Şakiri dinlədi, Mikayıl Azaflıya vuruldu, Səməd Vurğun və Rəsul Rza zirvələrinə səyahət etdi, ömür-gün yoldaşı ilə yol-yoldaşı olmaqdan yorulmadı, "uşaq ikən anamı itirmişəm deyəndə səsi titrədi. Ömrünün ən müdrik çağında da uşaq kimi saf, səmimi idi. Nə qədər bayatı desəm, yorulmaram" dedi. Həmin an mənə elə gəldi ki, dünyanın ən yaxşı adamları elə bayatı bilən adamlardır...*

**- O dövrün və bugünün Bakısı – hansı daha ürəyinizcədir?**

- Mən Bakıya 1957-ci ildə gəlmişəm. O vaxtlar Bakı belə deyildi. Nərimanov prospektindən o yana, demək olar ki, evlər yox idi. Bir az kənarda ev verəndə insanlar sevinirdilər. Düzü, hamı ev ala bilməzdi. İndi zaman çox dəyişib, sürətlə inkişaf edib. Mən həmişə deyirdim ki, İlahi, nə olaydı, sosialist inqilabı Bakıya 20 il gec gələydi. Onda gör Bakı necə olardı! O arzum indi yerinə yetir. Müqayisə eləmək olmaz. Ancaq insanda bir nostalji hiss olur axı, məndə də o nostalji qalıb. İndi o küçələrdən keçirəm, həmin küçələr deyil. Bəzən ürəyimdə bir həsrət qalır ki, bu niyə belə dəyişdi. Bakıda maşınlar yox idi. İndi hər şey sürətlə inkişaf edir.

**- Sizin vaxtınızda kənddən Bakıya gələn cavanları barmaqla saymaq olardı, indi Bakı az qala rayon mərkəzini xatırladır...**

- Bakıya insanların axını təbiidir. Biz keçid dövrünü yaşadıq. Qarabağ müharibəsi də bir tərəfdən... Bakıya axın ona görə çoxdur ki, burada yaşayış səviyyəsi üstündür. Mən Bakıya kasıb ailədən gəlmişdim. Gəncədə Zərdabi adına institutda oxuyurdum. Bəs məni Bakıya nə gətirdi? Mehdi Hüseynin "Abşeron" romanı. Elə vurulmuşdum o romana. Bakıya gələndən sonra Mehdi Hüseynin təsvir elədiyi pilləkəni əlimlə tuta-tuta qalxıb düşürdüm. Lap Tahir kimi... təki o hissləri yaşayım. Elə arzular indi də insanlarda var. Ona görə də Bakıya axın olur.

**- O zamankı ədəbiyyat zamanın surəti ilə ayaqlaşa bilirdimi və yaxud cəsarət sarıdan korluq çəkmirdi ki?**

- Ədəbiyyat formalaşmışdı. Düzdür, kənd həyatından çox yazılırdı, ona görə ki, biz aqrar ölkə idik. Bunu danmaq olmaz. İndi ədəbiyyatda bir yeknəsəklik var. Bu, keçid dövrünün ağrılı-acılı bir nəticəsidir, hər şeyə təsir edir. Mədəniyyətə, mənəviyyata, incəsənətə, bir sözlə, hər şeyə. Sosializm realizmi deyirdik. Ona məhəbbət tərənnüm olunmalıydı. Mən "ədəbiyyatda yeknəsəklik var" deyəndə özümü də günahkar hesab edirəm, görünür, az oxuyuram, yaşım imkan vermir, elmlə məşğul oluram. Ayda bir neçə adama opponent olmalıyam, üç yüz səhifəni oxumalıyam. Ancaq oxuduqlarımdan və eşitdiklərimdən belə qənaətə gəlirəm ki, ədəbiyyatda bir formalaşma gedir. Əlbəttə, o dövrdə cəsarət də var idi. İndi söz, mətbuat azadlığı var, amma baxır bu azadlıqdan necə istifadə edirlər. Mən çox narahatam belə şeydən. Bizim gənclərimizdə bir laqeydlik əmələ gəlib. İnsan ki var-dövlət barədə düşünür, onda vətənə, xalqa, mədəniyyətə maraq azalır. Bizi bu laqeydlikdən ancaq ədəbiyyat xilas edəcək. Ədəbiyyat kimi insanların şüuruna təsir edən ikinci bir vasitə tanımıram. Biz ədəbiyyata öyrənə-öyrənə gəlmişik. Deyirlər, məsələn, filankəs Tolstoyun şinelindən çıxıb. Səməd Vurğunun gənclərə nə qədər təsiri var. Azərbaycançılığı ortaya çəkən görkəmli şairimiz Abbas Səhhət olub. "Vətənimdir" şeiri ilə. Sonra gəlir Səməd Vurğunun "Azərbaycan" şeiri. İndi bəzi ağzıgöyçəklər deyir ki, ay belə oldu, ay elə oldu. Səməd Vurğunun "Azərbaycan" şeiri cəsarət deyildimi? Rəsul Rza "Sarı dana"nı yazdı. Bu, cəsarət deyildimi? Xalqa bağlılığı Rəsul Rza qoymuşdu ortaya. İndi təbii ki, cəsarət daha böyükdür. Ancaq sözün siqlətini deyim, təsirimi deyim, ora gəlib çıxa bilmirəm. Bilirəm oxuyanlar məni qınayacaqlar. Bu, mənim ürəkdən gələn sözlərimdir. Düşüncəm belədir. Başqa cür danışsam, səmimi olmaram.

**- Altı il Dəclə-Fərat sahillərində yaşayan Qəzənfər Paşayev bir də o yerlərə dönmək istəyərdimi?**

- O illər mənim gəncliyimlə bağlıdır. Mən 1962-ci ildə o kitab üzərində işləmişəm. Material toplamışam, kitab 1985-ci ildə işıq üzü gördü. Az adam bilir ki, mən ildə iki dəfə İraqa gedib gəlirəm. Getməsəm də ürəyim sakitlik tapmaz. İraqı ikinci vətənim hesab edirəm. İraqın səfiri bir tədbirdə etiraf etdi ki, Qəzənfər Paşayev bizim fəxri vətəndaşımızdır.

**- Televiziyada "Ovqat" verilişindəki çıxışlarınıza baxanda mənə elə gəlir ki, gözəl şeir dinləyirəm. Ən çox sevdiyiniz şeir və musiqi?**

- Çox təşəkkür edirəm. Mənə bunu çox adam deyir. Yəqin bu Allahdan, təbiətdən, valideynlərdən gəlmədir. Heç vaxt yalan danışmıram. Ola bilsin ki, hardasa bir müqəddəs yalan olsun. Kiminsə çörəyini kəsəcəklər, kimisə işdən çıxaracaqlar, o yalanla onun qarşısını alıram. Mən o vaxt Bakıya gəlib, oxumağa şərait olmadığından kəndə qayıtdım. Radioda Aşıq Şakir oxuyurdu. Şövkət Ələkbərovanın ifasında Səməd Vurğunun "məni dəryada qərq etsə də zaman,Vurğun öldü deməyin" misralarını eşidib elə ağladım ki... Çünki anasız böyümüşdüm. Mən Səməd Vurğun yaradıcılığına onda vuruldum. Yaxşı yadımdadır, ümummilli liderimiz Heydər Əliyev bahar bayramı ilə bağlı Qoşa qala qapısına gəlmişdi. O zaman tilsimli bir səs ətrafı bürüdü. Nazpəri Dostəlıyeva Azaflı Mikayılın "Ağarmayın ay saçlarım, amandır" mahnısını oxuyurdu. Mən onda gördüm ki, şeirlə musiqi vəhdətdə olanda necə təsirli olur. Hələ orda oxunmayan bir bənd var:

Olmazmı ki, qəm çəkincə güləsən  
Nədən oldu yanıb döndün külə sən.  
Qırx yaşına çatmamısan hələ sən,  
Ağarmayın ay saçlarım, amandır.

Mən orda aşıq Azaflıya təzədən vuruldum. Hiss elədim ki, böyük Heydər Əliyev də çox məmnunluqla dinləyirdi. Sonra saz sənətində böyük inkişaf getdi, müsabiqələr keçirildi. Azərbaycanvn birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-da saz sənəti nümayiş etdirildi, muğama böyük qapılar açıldı. Biz gənc olanda tələbələr arasında böyük diskussiya gedirdi. Mən başda olmaqla bir qrup deyirdi ki, ən yaxşı şair Səməd Vurğundur. O biri qrup deyirdi ki, Rəsul Rza yaxşı şairdir. Onda başa düşmürdüm ki, biz Azərbaycanın iki zirvəsindən danışırıq. Bir sirr açacağam, bunu heç kim bilmir. Şair Tofiq Bayram Əmircan mühitində böyüyüb. Amma onun bir qəzəli də yoxdur, niyə? Çünki Tofiq Bayramın atası Ağstafaya işləməyə gedir və oğlunu da özü ilə aparır. O bu mühitdə bir müddət olduğundan qoşmalar yaradıb. Bax budur təsir.

**- Soyadınızı dəyişsəniz, nə götürərdiniz?**

- 1968-ci ildə iraqlı şair Molla Pənah Vaqifin yubileyinə gəlmişdi. Mənə Qəzənfər Paşalı dedi. Mən əlli-altmış il Paşayev olum, birdən dəyişim, bu, çox çətindir. İnşaallah, oğlum dəyişər.

**- Kasıblıqla yazıb-yaratmaq Sizin üçün çətin deyildi ki?**

- Həyat həmişə keşməkeşlidir. Əgər belə olmasa, insanlar onun açarını tapar, məhv edərlər. Hərə öz pəncərəsindən baxır və baxdığını görür. Həyatın hər üzü var. Yəqin imkansızlıq məsələsini də nəzərdə tutursunuz. Sabit Rəhmanın kiçik bir otağı varmış, o, çarpayısını tavandan asarmış. Amma yazdığı əsərlərə baxın. İmkansızlıq həyatda mübarizə üçün stimuldur. Hər şey olanda insan dərk edir ki, dünya fani imiş.

**- Özünüzdən narazı olduğunuz vaxtlar olubmu?**

- Cavanlıqda etdiyim bəzi günahlarıma görə özümü qınayıram. Yəqin ona görə insanlar müqəddəs yerlərə gedirlər ki, gunahlarını yusunlar. İnsan günah işlədə bilər, onu dərk edəndə peşmançılıq çəkərsə, Yaradan onu bağışlayar.

**- İlk sevgi məktubunuzu saxlayırsınızmı?**

- Olub belə şeylər, ancaq qalmayıb. İlk sevgim beşinci sinifdə oxuyanda olub, ancaq institutda oxuyanda bir qızı sevirdim. O, zərgər qızı idi, mən də kasıb bir oğlan, ona yaxınlaşıb söz dedim, məni təhqir elədi. Ondan sonra bu barədə düşünmədim. Sonra xaricdə oldum. Gec evləndim, ancaq mənim bəlkə də öz üzərimdə işləməyimə o hadisə çox təsir etdi. Mən onun acığına böyük adam olacağam – dedim. Beş övladım var, həm ata, həm də baba kimi çox xoşbəxtəm.

**- Uzun bir yola çıxsanız, yol yoldaşı kimi götürərdiniz?**
- Yola çıxmaq asan deyil. Kərkükdə belə bir deyim var:

Yoldaş tanı, yola var,
Yolda min cür bəla var.

Gərək yol yoldaşın ürəyincə ola. İnsandan, bəşəri ideyalardan, poeziyadan danışsın. Həyat yoldaşımla yola çıxmaq mənim üçün çox rahat olur.

**- İndi də bayatı yaranır. Niyə çağdaş bayatılar öz sələfləri kimi folklor nümunəsinə çevrilmir?**
- Yayda İsmayıllıya - şair Musa Yaqubgilə qonaq getmişdim. O dedi ki, bəzən şeir yazanda bayatıdan utanıram. Bayatı o qədər dərindir. Rəsul Rza 1980-ci ildə ölümünə bir il qalmış silsilə şeirlər yazdı. İndi ordan bir-iki bayatı deyim:

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana yanında,
Tökür qan-yaş balası.

Bağdaddan karvan gəlir
Qəmli, pərişan gəlir,
Kimlər qurban kəsilir,
Sularım al-qan gəlir.

**- İndi nənələr bayatını, analar laylanı yadırğayıb. Amma inanmaq olmur ki, Qəzənfər Paşayevin nəvələri babalarının dilindən bayatı eşitməsinlər...**
- Mənim həyat yoldaşımın gözəl səsi var, uşaqları həmişə layla ilə yatırdıb. Layla ilə böyüyən uşaq xalqın oğlu, xalqın qızı olur.

**- Bəlkə bir neçə bayatı deyəsiz?**
- Mən nə qədər bayatı desəm yorulmaram.

Dərdə kərəm,
Dərdim çox, dərd əkərəm.
Qoşmuşam qəm yükünü,
Sürdükcə dərd əkərəm.

Leyli, sən nə Leylisən,
Kimə saldın meyli sən?
Sən bəyəndin, sən sevdin
Hələ də gileylisən.

Bir daş atar,
Bir kirəc bir daş atar,
Tərəzim əyiləndə,
Hər gələn bir daş atar.

Bağdad yolu Gəncədi,
Gülü pəncə-pəncədi.
Demə sizdən uzağam,
Məhəbbət ölüncədi.

Əslim Qarabağlıdı,
Sinəm çarpaz dağlıdı,
Kəsilib gəlib gedən
Yoxsa yollar bağlıdı?

Mən dəlidən,
Dost gəlir Məndəlidən.
Ay Allah, Leyliyə bax,
Küsübdü mən dəlidən.

**- "Ulduz"a sözünüz varmı?**
- "Altı il Dəclə-Fərat sahillərində" kitabım haqda mərhum Qasım Qasımzadənin "Ömrün əbədiləşən illəri" məqaləsi ilk dəfə "Ulduz"da dərc olunub. "Ulduz"un daimi oxucusuyam. Bu dərgi istedadlı gənclərin tanınmasına, yeni qüvvələrin gəlməsinə kömək olur. Sağ olun ki, biz nəsli də unutmursunuz. Həmişə beləcə parlaq olmağınızı arzulayıram.

*Söhbətləşdi:*
**Fərqanə MEHDİYEVA**

